

## İmadəddin Nəsimi

*Dörd müxalif cəm olanda, bil ki, əsması nədir,*
*Elm ilə bilgil anın ismü müsəmması nədir?*

*Arif isən, nəfsini qurtar məqami-suflidən,*
*Dəgmə əhvəl nə bilür mənzili-əlası nədir?*

*Şöhrətü zərqü riyadır zahidin əfsanəsi,*
*La deyər, hər dəmbədəm bilməz ki, illası nədir.*

*Mən münacat eylərəm hər dəmbədəm dər-kuyi-dust,*
*Çün vücudun Tur olanda, bil ki, Musası nədir.*

*Əhli-həq hər yerdə məskən dutsa, həqdir mənzili,*
*Kəbəvü bütxanəvü məscid, kəlisası nədir?*

*Dünyanın qalü qilindən keç, Nəsimi, fariğ ol,*
*Aləmi-vəhdəti gözlə, bunca qovğası nədir?*